Hər bir alim qiymətlidir. Ancaq nəzəriyyəni təcrübə ilə birləşdirən, fikirlərini tətbiq edə bilən və onlardan əməli nəticə götürə bilən, cəmiyyətə, ölkəyə, xalqa konkret fayda gətirən insanlar alimlərin sırasında xüsusi yer tuturlar.

**Ümummilli lider Heydər Əliyev**



*“1993-cü ildə Heydər Əliyev hakimiyyətə qayıdandan sonra bütün sahələrə təkan verildi, o cümlədən Azərbaycan elminə. Təsadüfi deyil ki, Ulu Öndərin ilk görüşlərindən biri də məhz Elmlər Akademiyasının binasında Azərbaycan ziyalıları ilə olmuşdur. O görüş çox rəmzi xarakter daşıyırdı. Çünki Azərbaycan alimləri, ziyalıları ölkəmizin, cəmiyyətimizin elitasıdır. Onların dünyagörüşü, mövqeli hərəkətləri, fəaliyyəti Azərbaycanın inkişaf dinamikasını, inkişaf perspektivlərini xeyli dərəcədə müəyyən edir”.*

**Milli Elmlər Akademiyasının 60 illiyinə həsr olunmuş təntənəli yığıncaqda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqindən**

# UNUTSAQ, UNUDULARIQ....

***AMEA-nın müxbir üzvü, Əməkdar elm xadimi, iqtisad elmləri doktoru, professor, “Şöhrət” ordenli Aqil Əlirza oğlu Əliyev 10 dekabr 1926-cı ildə anadan olmuşdur. Artıq 20 ildir ki, (07.03.2006 - 07.03.2026) aramızda olmasa da, hər zaman qəlbimizdə yaşayacaq.***

Ona insanlığın zirvəsi, bitib-tükənməyən örnək məktəbi desək, yanılmarıq. Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü, Əməkdar elm xadimi, iqtisad elmləri doktoru, professor Aqil Əlirza oğlu Əliyev əsl elm fədaisi idi. Bu gün görkəmli alimin elmdə açdığı yolla gedənlərin, onun irsindən bəhrələnənlərin sayı durmadan artır.

Aqil Əliyev bütün zamanlarda öz nüfuzunu, böyüklüyünü qoruyub saxlayan şəxsiyyət idi. Azərbaycan xalqının keçdiyi qəhrəmanlıq və rəşadət yolu bu böyük alim üçün iftixar mənbəyi, faciələri isə ələm və kədərlə yoğrulmuş iztirablı düşüncələr idi. Onun bütün əməl və fəaliyyəti xeyirxah niyyəti idi. Aqil Əliyevin xidmətləri yetirmələrinə təkcə savad öyrətməkdən ibarət deyildi, alim həm də onlara öz yaşayışlarını yeni tərzdə, elmi biliklər əsasında qurmağı, müasirləşməyi öyrədirdi.

Görkəmli alim sıravi müəllimlikdən AMEA-nın müxbir üzvlüyünə qədər yüksəlmiş, respublikanın fəxri adlarına layiq görülmüş, elmi fəaliyyətinə ölkə rəhbərliyi tərəfindən yüksək qiymət verilmişdir. Uzun müddət Azərbaycan Tibb İnstitutunun (hazırda Azərbaycan Tibb Universiteti) “Siyasi iqtisad” kafedrasına rəhbərlik etmiş bu alim, tədris işinin təkmilləşdirilməsində böyük işlər görmüş və elmi tədqiqatların gücləndirilməsində misilsiz xidmətlər göstərmişdir. O, ilk dəfə səhiyyənin iqtisadi problemlərini tədqiq etmişdir.

***Aqil Əliyev 1996-cı ildən Beynəlxalq Ekoenerji Akademiyasının “Azərbaycan” bölməsinin akademiki idi. 2001-ci ildə Azərbaycan Milli Elmlər Akademiyasının müxbir, 2003-cü ildə Beynəlxalq Menecment Akademiyasının həqiqi üzvü seçilmişdir.***

Görkəmli alim fədakar əməyinə, elmi və pedaqoji fəaliyyətinə görə 1976-cı ildə “Qırmızı Əmək Bayrağı” ordeni, 1982-ci ildə “Əməkdar elm xadimi” fəxri adına, 2000-ci ildə “Şöhrət” ordeninə və digər ali mükafatlara layiq görülmüşdür. 2006-cı ildə Beynəlxalq İqtisadçılar İttifaqının üzvü seçilmişdir.

Aqil Əliyev ömrünün ən məhsuldar illərini Azərbaycan Tibb Universiteti ilə bağlamış, burada respublikanın həkimlər ordusunun yetişdirilməsində yaxından iştirak etmiş, tibbi kadrların hazırlanmasında mühüm xidmətlər göstərmişdir. Nəcib və xeyirxah insan kimi, o, bu təhsil ocağının professor-müəllim və tələbə heyətinin tükənməz rəğbətini qazanmışdır.

Görkəmli alimin 200-ə qədər elmi əsəri, o cümlədən 30-dan artıq monoqrafiya və dərslikləri işıq üzü görmüşdür. Onun irihəcmli kitabları və monoqrafiyaları, elmi-tədqiqat işlərinin nəticələri ölkə elminə bir sıra yeniliklər gətirmişdir. Professor hələ XX əsrin sonlarında respublika əhalisinin sosial vəziyyətinin yaxşılaşdırılmasını, xalq istehlakının artırılmasının zəruriliyini, məhsul və xidmətlərin yaxşılaşdırılmasını öz tədqiqatlarında ön plana çəkmiş və dəyərli təkliflər irəli sürmüşdür.

Aqil Əliyevin respublika əhalisinin sosial vəziyyətinin yaxşılaşdırılmasına həsr olunmuş və müxtəlif dillərdə nəşr edilmiş monoqrafiyaları elmi ictimaiyyətdə böyük maraq doğurmuş, şəxsi istehlakın inkişafı problemləri öyrənilmiş, istehsalla istehlak arasında qarşılıqlı əlaqə dərindən tədqiq edilmişdir. Zəngin statistikaya, konkret materiallara əsaslanan müəllif, burada əhalinin həyat səviyyəsinin yüksəldilməsi imkanlarını aşkarlamış, maliyyə və təchizat tənzimlənməsi problemlərinə xüsusi diqqət yetirmişdir.

Alim iqtisadi inkişaf ilə əhalinin gəlirləri arasındakı əlaqələri təhlil edərək, elmi və praktiki əhəmiyyətə malik digər nəticələr əldə etmişdir. Bütün bunlar isə elə indinin özündə də sosial sahələrin inkişafının, istehlakın yaxşılaşdırılmasını, onun strukturunun təkmilləşdirilməsini düzgün istiqamətləndirməyə kömək edir.

Aqil Əliyev tədqiqatlarının orijinallığına görə də fərqlənən alimlərdən olmuşdur. O, ilk dəfə olaraq respublikada səhiyyənin iqtisadi problemlərini tədqiq etmiş, bu sahənin inkişafının ictimai istehsalla uzlaşdırılması və səmərəliliyinin artırılması, onun qalıq prinsipi əsasında maliyyələşdirilməsindən imtina edilməsi və dövlət büdcəsinin sosial yönümlü olması fikrini irəli sürmüşdür.

Aqil Əliyev Azərbaycanda bir sıra elmi proqramların işlənib hazırlanmasında iştirak etmiş, “Əhalinin sağlamlığının qorunması” komissiyasının sədri olmuşdur. Görkəmli alim respublikada məhsuldar qüvvələrin səmərəli yerləşdirilməsi sxeminin müəlliflərindən biri idi. Onun apardığı tədqiqatlar xaricdə, xüsusilə, MDB məkanında tanınır və yüksək qiymətləndirilir. Çexiya, Slovakiya, Moskva, Sankt-Peterburq alimləri öz məqalələrində məhz Aqil Əliyevin əsərlərinə istinad edirlər. O, respublikada və dünyanın bir çox ölkələrində keçirilən möhtəşəm elmi simpoziumlarda və konfranslarda maraqlı məruzələrlə çıxış etmişdir.

Alimin orijinallığına və əhəmiyyətinə görə böyük maraq doğuran “Azərbaycanın sosial inkişafında islahatların rolu” əsəri Təhsil Nazirliyi tərəfindən dəyərli dərs vəsaiti kimi təsdiq edilmişdir. Eyni sözləri professorun “Azərbaycanda bazar münasibətləri şəraitində əhalinin sosial problemləri” əsəri barədə də demək olar. Bundan başqa, alimin “Azərbaycanın sosial-iqtisadi inkişafında islahatların rolu”, “İpək yolunun bərpası – bəşəriyyətin tərəqqi yoludur”, “Naxçıvan Muxtar Respublikası: nailiyyətlər və problemlər” adlı monoqrafiyalarında keçid dövründə reallaşdırılan islahatların verdiyi bəhrələr ümumiləşdirilmiş və elmi-praktik əhəmiyyətli nəticələr çıxarılmışdır. Bütün bunlar da Aqil Əliyevin dərin iqtisadi təfəkküründən və böyük novatorluğundan xəbər verirdi. Onun “Azərbaycanda əhalinin həyat səviyyəsinin yüksəldilməsinin aktual problemləri” adlı monoqrafiyası isə elmi sanbalı və zənginliyi baxımından xüsusi vurğulanmalıdır.

Alimin “Azərbaycanda bazar münasibətlərinə keçid şəraitində əhalinin müdafiəsi problemləri”, “Azərbaycan ərzaq təhlükəsizliyinin təmin edilməsi yollarında” əsərləri xarici ölkələrdə nəşr edilmişdir. Təkcə bazar iqtisadiyyatı şəraitində Aqil müəllimin 80 elmi əsəri çap olunmuşdur ki, onlardan “Menecment”, “İnvestisiya və innovasiya” adlı kitablarını xüsusi vurğulamaq lazımdır. Adları sadalanan bu kitablar iqtisad elmləri doktoru, professor Natiq Qasımovla müştərək yazılmışdır. Burada bazar iqtisadiyyatı şəraitində ölkədə aparılan iqtisadi islahatlar nəticəsində keyfiyyət dəyişikliklərinin əldə olunması, investisiya və innovasiyaların iqtisadiyyatın bütün sahələrində tətbiqinin ölkədə iqtisadi artımın sürətlənməsinə və əhalinin həyat səviyyəsinin yaxşılaşdırılmasına təsiri məsələləri araşdırılmışdır.

***Aqil Əliyev Azərbaycanda həyata keçirilən demokratik dövlət quruculuğu prosesində ictimai xadim kimi də fəal iştirak etmiş, əsl ziyalı və vətəndaş məsuliyyəti ilə bu proseslərə öz münasibətini bildirmiş və elmi araşdırmaları ilə ölkəyə sanballı töhfələrini vermişdir. Onun elmi tədqiqatları bir çox proqramların hazırlanmasında, sosial sahələrin islahatında və uğurlu nəticələrin əldə olunmasında mühüm rol oynamışdır.***

Respublikada fəaliyyət göstərən müdafiə şuralarının üzvü olan Aqil Əliyev yüksək ixtisaslı elmi kadrların hazırlanmasında da fəal iştirak edirdi. Onun rəhbərliyi altında 4 iqtisad elmləri doktoru və 6 elmlər namizədi hazırlanmış, yüzlərlə müdafiə işinin opponenti olmuşdur. İndi bu kadrların çoxu iqtisadiyyatın müxtəlif sahələrində rəhbər və pedaqoji işlərdə çalışırlar. Aqil müəllim öz yetirmələrinə hörmətlə, həm də böyük tələbkarlıqla yanaşırdı.

Aqil Əliyev görkəmli alim olmaqla yanaşı, həm də təcrübəli pedaqoq idi. Elmi diskussiyalarda prinsipial və kəskin mövqeyi ilə həmişə seçilirdi. Tələbələrini elmli və savadlı görmək onun yeganə idealı idi. Aqil müəllimin yetirmələri həmişə xeyirxah rəhbərlərinin qayğısını öz üzərlərində hiss etmişlər.

Aqil Əliyevin yetirmələrinin sırasına daxil olmaq bizə də nəsib olmuşdur. Görkəmli və müdrik alimin rəhbərliyi altında doktorluq işinin yazılmasında və müdafiəsində onun dəyərli elmi məsləhətlərindən həmişə bəhrələnmişik.

Aqil Əliyev böyük iqtisadçı alim, mahir pedaqoq olmaqla yanaşı, həm də gözəl



və qayğıkeş insan idi. Belə ki, o, maddi cəhətdən imkanı zəif ailələrə həmişə yardım etmiş, gənclərin təhsil almasına, əməkdaşlıq etdiyi qələm dostlarına, istedadlı uşaqlara, xüsusilə idmançılara böyük mənəvi və maddi kömək göstərmiş, onların himayədarı olmuşdur. O, yaxşılıq etməyi özünə mənəvi borc bilirdi. İnsanlara əl uzatmaq, çətin məqamlarda onlara kömək etmək alimin əsas amalı idi. Aqil müəllim aydın və işıqlı bir şəxsiyyət idi. Onun adamlara bəxş etdiyi işıq bu insanın mənəvi paklığından, intellektinin möhkəmliyindən, əsl ziyalılığından irəli gəlirdi. Onun sağlam ziyalı mövqeyi hər yerdə bilinirdi. Yığıncaqlarda çıxışları xüsusi əhval-ruhiyyə yaradırdı. Bütün bunlar onun yetirmələri üçün həmişə örnək olaraq qalır.

Aqil Əliyevin əsərləri bu gün nəinki aktuallığını itirməyib, hətta deyərdik ki, aktuallığını daha da dərindən tapıb. Çünki onun yazıb-yaratdığı dövrdə “innovasiya” sözü yox idi . Onun əsərlərinin praktiki əhəmiyyəti böyükdür. Aqil Əliyevin həyat və tale kitabını vərəqlədikcə onun nəcib bir insan, görkəmli alim, mahir pedaqoq, həm də xalqını, vətənini, elini, yurdunu dərin məhəbbətlə sevən, özündə Vətən və xalq dərdi yaşadan bir şəxsiyyət olduğunu görürük.

Hazırda elmin müxtəlif zirvələrinə çatmış alim kimi biz – onun yetirmələri, üzərimizdə bu fədakar insanın böyük əməyini hiss edirik. Görkəmli alimin bütün keyfiyyətləri hər zaman gənclərin elmi işlərə cəlb olunması və onların əsl tədqiqatçı, ən əsası isə şəxsiyyət kimi yetişməsi üçün mühüm amil olmuşdur.

Bu gün bu görkəmli alimin 100 illiyi ilə bağlı həm dövlət səviyyəsində, həm də Azərbaycan İqtisadçılar İttifaqı başda olmaqla AMEA, Azərbaycan Elm və Təhsil Nazirliyinin İqtisadiyyat İnstitutunda, Azərbaycan Dövlət İqtisad Universitetində (UNEC), həmçinin Azərbaycan Tibb Universitetində konfransların keçirilməsini arzu edərdik.

Bu il 100 illik yubileyi qeyd olunacaq görkəmli alim Aqil Əliyev xatirələrdə əbədi yaşamaq qüdrətinə malik şəxsiyyətdir.

**ALLAH RƏHMƏT ELƏSİN...**

**Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) professoru, iqtisad elmləri doktoru NATİQ ƏBÜLFƏZ oğlu QASIMOV**

**iqtisad elmləri doktoru, professor RƏNA POLAD qızı SULTANOVA**